# HEYDƏR ƏLİYEV VƏ CƏFƏR CABBARLI ADINA RESPUBLİKA GƏNCLƏR KİTABXANASI

***Lalə Sərdar qızı Məmmədova***

*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi,*
*magistrant*
*mlale3129@gmail.com*

***Açar sözlər:*** *Heydər Əliyev, Cəfər Cabbarlı, Gənclər Kitabxanası, mədəniyyət, gənclər siyasəti, maarifçilik*
***Ключевые слова:*** *Гейдар Алиев, Джафар Джаббарлы, Молодежная библиотека, культура, молодежная политика, образование*
***Keywords:*** *Heydar Aliyev, Jafar Jabbarli, Ganjlar Library, culture, youth policy, enlightenment*

**Xülasə:** Bu tezisdə Ümumilli lider Heydər Əliyevin Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının inkişafında oynadığı rol təhlil olunur. Heydər Əliyevin mədəniyyətə və maarifçiliyə verdiyi önəm, kitabxana siyasəti, xüsusilə də gənclərin intellektual inkişafı üçün yaradılan şərait vurğulanmışdır. Həmçinin məqalədə Heydər Əliyev siyasətinin davamı olaraq kitabxananın müasir dövrdə qazandığı nailiyyyətlərə də toxunulub.

**Резюме:** В тезисе анализируется роль общенационального лидера Гейдара Алиева в развитии Республиканской молодежной библиотеки имени Джафара Джаббарлы. Подчеркивается значение, которое Гейдар Алиев придавал культуре и просветительству, библиотечной политике, и особенно условиям, созданным для интеллектуального развития молодежи. В статье также затрагиваются достижения библиотеки в современное время как продолжение политики Гейдара Алиева.

**Summary:** This thesis analyzes the role played by the national leader Heydar Aliyev in the development of the Jafar Jabbarli Republican Ganjlar Library. The importance that Heydar Aliyev attached to culture and enlightenment, library policy, and especially the conditions created for the intellectual development of young people are emphasized. The thesis also touches on the achievements of the library in modern times as a continuation of Heydar Aliyev's policy.

Kitabxanalar hər bir xalqın mədəni irsini qoruyub saxlayan, maarifçilik missiyasını yerinə yetirən, ictimai şüurun formalaşmasında mühüm rol oynayan ocaqlardır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev kitabxana və ümumilikdə mədəniyyət sahəsinə daim diqqət və qayğı göstərmişdir. Onun rəhbərliyi dövründə mədəniyyət ocaqları olan kitabxanaların inkişafına, müasirləşməsinə şərait yaradılmışdır. Xüsusilə də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətində bu diqqətin əhəmiyyətli nəticələri müşahidə olunmuşdur.

Qeyd edək ki, Heydər Əliyevin dövlət idarəçilik konsepsiyasında milli-mənəvi dəyərlərin qorunması və təbliği prioritet istiqamətlərdən biri olmuşdur. Ulu öndər öz çıxışlarında dəfələrlə kitabxananın, kitabın insan həyatında oynadığı rolunu vurğulamış, bu sahədə fəaliyyət göstərən mütəxəssisləri yüksək qiymətləndirmişdir. Onun təşəbbüsü ilə 1970-1980-ci illərdə Azərbaycanda bir sıra kitabxana binaları inşa edilmiş, maddi-texniki bazaları gücləndirilimiş, fondları zənginləşdirilmişdir. Həmçinin mədəniyyət sahəsində həyata keçirilən əsas vasitələrdən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Bir sıra qanunlar, o cümlədən “Kitabxana işi haqqında”, “Mədəniyyət haqqında”, “Turizm haqqında”, “Nəşriyyat işi haqqında”, “Arxiv fondu haqqında”, “Muzeylər haqqında” bir sözlə, 2003-cü il daxil olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən təsdiqlənmişdir [8].

1928-ci ildə əsası qoyulmuş Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası ölkədə gənclərin fəaliyyətinə yönəlmiş ilk ixtisaslaşmış kitabxanalardan biridir. Kitabxana Mədəniyyət Nazirliyinin 1976-cı il 5 fevral 34 nömrəli əmri ilə Gənclər Kitabxanası statusu almışdır.

Heydər Əliyev bu kitabxananın fəaliyyətini daim dəstəkləmiş, onun gənclərin maariflənməsində eyni zamanda asudə vaxtlarını səmərəli keçirmələri baxımından strateji əhəmiyyətini qeyd etmişdir. 1993-cü il Heydər Əliyev hakimiyyətə yenidən qayıtdıqdan sonra kitabxanalara, ümumilikdə mədəniyyət sahəsinə yeni bir nəfəs gəldi. Gənclər Kitabxanası da bu dövrdə müasirləşməyə başladı: elektron nəşrlərə keçid, beynəlxalq əməkdaşlıqların qurulması, "kitabxana əməkdaşları Rusiya, Ukrayna, Misirin və s. ölkələrin müxtəlif şəhərlərində keçirilən bir sıra tədbirlərdə iştirak ediblər"[15]; gənclər üçün sosial layihələrin həyata keçirilməsi məhz həmin dövrün məhsuludur.

Ümumiyyətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının formalaşması və inkişafı Ulu öndər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsidir. Qeyd etməliyik ki, onun həyata keçirdiyi mədəniyyət strategiyası təkcə bir dövrü deyil, bütöv bir gələcəyi əhatə edir. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası bu gün də Heydər Əliyev irsinin layiqli davamçısı kimi fəaliyyətini davam etdirir və Azərbaycanın maarifləndirici, intellektual həyatında əhəmiyyətli rol oynamağa davam edir.

**Ədəbiyyat**


1. *Ələkbərova N.* Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti //Xalq qəzeti.-2014.- 11 may.-S.8.

2. *Dostəli Ə.* Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası – 95 // Xalq qəzeti . -2023.- 22 dekabr, № 280.- S.10.

3. *Əhmədov E.* Uşaq və Gənclər Kitabxanasının informasiyalaşdırılması // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal, Bakı, 2014. - s.72.

4. http://ryl.az//

5. *Xələfov A.A.* Kitabxanaşünaslığa giriş: dərslik (üç cilddə) h.1-2.-Bakı, 2001. - 400 s.

6. *Cavadov Z.* Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası // Respublika. -2019.- 21 may.- S.6.